QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Azərbaycan Mədəniyyəti - 2040"



3

№ 005 (7415)

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

20 yanvar 2026-cı il.
Qiyməti 1 manat

# Yüksək nüfuzun dəyərli mükafatı!

Prezident İlham Əliyev 2026-cı il üçün "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülüb



3

# 20 Yanvar:

## 36 il əvvəl və 36 il sonra




4

### Qlobal pandemiya: yoluxma sayı 1 milyardı keçdi



7

### "Ağanəzərəm, belə gəzərəm": bitdi!




6

### Uşaq qidasında qiymət oyunu



5

### Məktəblərdə şagird özbaşınalığının səbəbi nədir?



5

### Qorbaçovun QARA ÜZÜ

5



# Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsini yad edib

Yanvarın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.





# Davos Forumu - Azərbaycan üçün mühüm əməkdaşlıq platforması!

## Ümumdünya İqtisadi Forumunun illik toplantısına qatılan Prezident İlham Əliyev bir sıra mühüm görüşlər keçirib

***Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev Ümumdünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün yanvarın 19-da İsveçrə Konfederasiyasına səfərə gəlib. Dövlətimizin başçısını və birinci xanım Mehriban Əliyevanı Sürix şəhərinin beynəlxalq hava limanında rəsmi şəxslər qarşılayıblar.***

Yanvarın 19-da Azərbaycan Prezidenti İlham Əliyev Davos Ümumdünya İqtisadi Forumu çərçivəsində Braziliyanın aparıcı investisiya banklarından və aktivlərin idarə edilməsi şirkətlərindən biri olan "BTG Pactual" şirkətinin sədri Andre Esteves ilə görüşüb.

Prezident İlham Əliyev Azərbaycanın makroiqtisadi sabitliyinə və fiskal intizamına, həmçinin uzunmüddətli inkişaf strategiyasına toxunaraq, bu istiqamətdə həyata keçirilən siyasətin ölkəmizin beynəlxalq maliyyə bazarlarında etibarlı tərəfdaş kimi mövqeyinin daha da möhkəmlənməsinə müsbət təsir göstərdiyini dedi. Dövlətimizin başçısı vurğuladı ki, dünyanın beynəlxalq reytinq agentlikləri ölkəmizin kredit reytinqini daha da artıraraq, investisiya və müsbət proqnozu olan reytinq səviyyəsinə qaldırıb.



Rəhbərlik etdiyi şirkətin qlobal fəaliyyət coğrafiyası və institusional investorlarla iş təcrübəsi barədə danışan Andre Esteves "BTG Pactual"ın müxtəlif regionlarda tətbiq etdiyi investisiya yanaşmaları barədə məlumat verdi.





Qeyd olundu ki, Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə bu şirkət arasında son dövrlərdə mümkün əməkdaşlıq istiqamətləri və strateji prioritetlər ətrafında ilkin müzakirələr aparılır, qarşılıqlı maraq doğuran məsələlər üzrə dialoq davam etdirilir.

Prezident İlham Əliyev dünən Davosda "Vestas Wind Systems" şirkətinin marketinq, kommunikasiya, davamlılıq və ictimaiyyətlə əlaqələr üzrə qrupunun baş vitse-prezidenti Morten Dirholm ilə görüşüb. Söhbət zamanı bu şirkətin ölkəmizdə bərpaolunan enerji, xüsusilə külək enerjisi sahəsində fəaliyyətinə toxunuldu, mövcud əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi. Azərbaycanın xarici investorlar üçün cəlbedici məkan olduğu vurğulandı, ölkəmizdə əlverişli investisiya və biznes mühitinin mövcudluğu məmnunluqla qeyd edildi.

Görüşdə Azərbaycan ilə "Vestas Wind Systems" şirkəti arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 19-da Davosda Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus ilə görüşü olub. Söhbət zamanı dövlətimizin başçısı ilə Tedros Adhanom Qebreyesusun əvvəlki görüşləri məmnunluqla xatırlandı. Azərbaycan ilə Ümumdünya Səhiyyə Təşkilatı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı, ölkəmizin təşkilatın dünyanın müxtəlif bölgələrində həyata keçirdiyi layihələrə dəstəyi qeyd edildi. Bu xüsusda COVID-19 pandemiyası zamanı Azərbaycanın bir sıra ölkələrə könüllü maliyyə yardımı göstərməsi xüsusi olaraq vurğulandı. Görüşdə Azərbaycan ilə Ümumdünya Səhiyyə Təşkilatı arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı. Bəli, Azərbaycan bu mühüm beynəlxalq iqtisadi platformada hər zaman fəal iştirakı ilə seçilir. Bölgənin iqtisadi lokomotivi sayılan Azərbaycan həm də dünya birliyi üçün etibarlı tərəfdaş ölkə kimi sayılır.

### Davos Forumu dünya ölkələri üçün nə ifadə edir?

1971-ci ildə alman iqtisadçısı Klaus Şvab tərəfindən yaradılan Davos İqtisadi Forumu rəsmi olaraq Ümumdünya İqtisadi Forumu (World Economic Forum - WEF) adlanır və hər il İsveçrənin Davos şəhərində keçirilən toplantılarla qlobal siyasi və iqtisadi gündəmi formalaşdıran əsas platformalardan biridir. Forum təkcə iqtisadi məsələlərin müzakirə edildiyi məkan deyil, eyni zamanda qlobal güc mərkəzlərinin dialoq apardığı qeyri-rəsmi strateji laboratoriya rolunu oynayır. Qlobal gündəmin formalaşdırılmasında Davos Forumunun çox böyük əhəmiyyəti var. Davosda səsləndirilən ideyalar sonradan G7, G20, BMT və Dünya Bankı gündəminə düşür. Qlobal siyasət üçün "ideoloji eskiz" rolunu oynayır, eyni zamanda qeyri-rəsmi diplomatiya platformasıdır. Rəsmi danışıqların mümkün olmadığı şəraitdə liderlər üçün "arxa qapı diplomatiyası" imkanı yaradır. Həmçinin indiki reallıqlar şəraitində münaqişə tərəfləri üçün dialoq mühiti formalaşır.

### Davos İqtisadi Forumu və Azərbaycan

Azərbaycan uzun illərdir Davos Forumunda Prezident səviyyəsində, dövlət-özəl sektor əməkdaşlığı formatında iştirak edir. Azərbaycanın əsas mesajları enerji təhlükəsizliyində etibarlı tərəfdaşlıq, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri, post-münaqişə dövründə regional sabitlik, yaşıl enerji və bərpa olunan resurslardır. Və burada Azərbaycanın qazandığı üstünlüklər qlobal investorlarla birbaşa dialoq, enerji və nəqliyyat layihələrinin tanıdılması, ölkənin geosiyasi əhəmiyyətinin vurğulanması, yeni texnologiya və maliyyə əməkdaşlıqları üçün zəmin hazırlamaqdır. Enerji diplomatiyasının genişləndirilməsi, qaz və bərpa olunan enerji layihələrinin sinxron təqdimatı, Avropanın enerji təhlükəsizliyində rolun möhkəmləndirilməsi, o cümlədən rəqəmsal və yaşıl gündəliyə aktiv inteqrasiya, "Yaşıl Zəngəzur" və alternativ enerji layihələrinin tanıdılması, rəqəmsal tranzit və smart logistika təşəbbüsləri dövlətimizin dünya birliyinə inteqrasiyasında prioritetdir.

Azərbaycan Qarabağ münaqişəsini təkbaşına, beynəlxalq qanunlar və beynəlxalq təşkilatların qərarlarına uyğun olaraq ədalətli şəkildə həll edib. Bu gün işğaldan azad edilmiş ərazilərdə geniş quruculuq işləri aparılır, müqalayihələr həyata keçirilir. Azərbaycan bunu post-münaqişə region modeli kimi təqdim edir. Qarabağ və Şərqi Zəngəzurun bərpa təcrübəsi, dayanıqlı inkişaf və reinteqrasiya modeli dünya birliyi tərəfindən qəbul edilir. Azərbaycan üçün isə Davos qlobal sistemdə mövqeyini möhkəmləndirmək, yeni iqtisadi və siyasi tərəfdaşlıqlar qurmaq, regional liderlik iddiasını gücləndirmək üçün mühüm platformadır. Əsas məsələ forumda iştirak yox, orada formalaşan qlobal narrativlərin aktiv iştirakçısına çevrilməkdir. Davos Forumu qlobal iqtisadi siyasətin yalnız müzakirə edildiyi deyil, həm də şəkilləndirildiyi və yönləndirildiyi məkandır. Azərbaycanın gələcək üçün əsas prioritetləri yaşıl enerji layihələrinin beynəlxalq kapitalla inteqrasiyası, rəqəmsal iqtisadiyyat və smart logistika təşəbbüsləri, regional sabitlik modeli kimi Azərbaycanın təqdimatı kimi önəmli məsələlərdir. Azərbaycanın milli maraqlarının qlobal gündəmə çıxarılması, ölkənin strateji çəkisinin artması, uzunmüddətli iqtisadi və siyasi dividendlərin yaranması baxımından Davos Forumu Azərbaycan üçün sadəcə beynəlxalq tədbir deyil, qlobal iqtisadi siyasətdə mövqelərin möhkəmləndirildiyi strateji meydandır.

***V.VƏLİYEV***

# Yüksək nüfuzun dəyərli mükafatı!

## Prezident İlham Əliyev 2026-cı il üçün "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülüb



Azərbaycanın əldə etdiyi böyük uğurlarının, qələbələrinin təməlində düzgün və müdrik siyasətin aparılması dayanır. Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm uğurlara, nailiyyətlərə imza atılır. Bu isə onu təsdiq edir ki, Ulu Öndərimiz Heydər Əliyevin siyasi xəttinin dönməzliyi və davamlılığı ən yüksək səviyyədə təmin olunur. 2020-ci ilin sentyabrın 27-də başlayan və 44 gün çəkən Vətən Müharibəsində 30 illik erməni işğalında olan torpaqlarımızın azad edilməsi bunu əyani sübutu sayılar. 2023-cü il sentyabrın 19 - da başlayan və 23 saat 44 dəqiqə çəkən antiterror əməliyyatları ilə Qarabağdakı separatçıların təmizlənməsi, terrorçuların tam şəkildə tərksilah edilməsi və bununla da ölkəmizin suverenliyinin təmin olunması Dahi Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasətin uğurla davam etdirildiyini bir daha təsdiqlədi.

### Sülh gündəliyinin də müəllifi Prezident İlham Əliyevdir

Birmənalı şəkildə demək olar ki, artıq bölgəmizdə sülh bərqərar olur. Ermənistanla bəzi sahələr üzrə əlaqələr qurulur. Yaxın vaxtlarda isə Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirəcək Zəngəzur dəhlizi açılacaq. Bununla bağlı 2025-ci ilin avqustun 8-də Vaşinqtonda Azərbaycan və ABŞ Prezidentlərinin, eləcə də Ermənistanın baş nazirinin iştirakı ilə sənəd imzalanıb, Birgə Bəyannamə qəbul edilib. Ümumilikdə qeyd etmək olar ki, Prezidentimiz İlham Əliyevin avqust ayında ABŞ-a səfəri yaddaqalan və uzun illər mətbuatın diqqət mərkəzində qalacaq səfər oldu. Bununla bağlı BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxışı zamanı Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan yeni bir dövrə qədəm qoyub : "Biz həm müharibəni udduq, həm də sülhü qazandıq. İşğala son qoyduq və bərpa işlərinə başladıq. Ədalət zəfər çaldı, suverenlik möhkəmləndi və sülh de-fakto təmin olundu. Biz bu müsbət təcrübəmizi paylaşmağa hazırıq. Son illərdə əldə etdiyimiz nailiyyətlər yalnız Azərbaycanın qələbəsi və uğuru deyil. Bu, həm də beynəlxalq hüququn sonda mütləq üstünlük təşkil etməsinin sübutudur. Bizim baxışlarımız aydındır. Bunlar beynəlxalq hüquqa əsaslanan sülh və inkişaf, dövlətlərin daxili işlərinə qarışmama, qarşılıqlı hörmət və əməkdaşlıqdır. Gəlin, birlikdə ikili standartların aradan qalxdığı, ədalətin selektiv olmadığı, qanunun aliliyinə hörmət edildiyi, sülhün təkcə sözlərlə deyil, əməli addımlarla təmin olunduğu bir dünya quraq".

### Prezident İlham Əliyev "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görüldü

Diqqətçəkən məqam ondan ibarətdir ki, BMT-nin toplantısında Prezident İlham Əliyevlə görüşmək istəyən dövlət başçılarının, iri maliyyə korporasiyaların rəhbərlərinin sayı kifayət qədər çox idi. Bütün bunlar Cənubi Qafqazda sülh və sabitlik təşəbbüskarı kimi mövqeyini daha da gücləndirmiş Azərbaycana olan marağın göstəricisidir. Prezidentimiz İlham Əliyev vaxt məhdudiyyəti səbəbindən onunla görüşmək istəyənlərdən yalnız bir neçəsini qəbul edib, söhbətləşə bildi. Onların arasında Finlandiya, Yunanıstan, Keniya, Portuqaliya, Bolqarıstan liderləri, Avropa Şurasının baş katibi, ABŞ-nın böyük investisiya şirkətlərinin rəhbərləri və digərləri var. Bütün bunlar bir daha onu təsdiq edir ki, Azərbaycanın liderinin nüfuzu, hörməti dünya arenasında böyükdür. Məhz bu cür yüksək nüfuzun, nəticəsi olaraq Prezident İlham Əliyev bir sıra beynəlxalq təşkilatların, dövlətlərin yüksək mükafatlarına layiq görülür. Ötən gün isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) nüfuzlu Şeyx Zayed Fondu tərəfindən layiq görüldüyü "Zayed İnsan Qardaşlığı Mükafatı" a layiq görülüb. Şeyx Zayed Fondu BƏƏ-nin banisi Şeyx Zayed bin Sultan Əl Nəhyanın irsini yaşatmaq üçün təsis edilib. Fondun əsas missiyasının fəlsəfəsi dünyada humanizm, dözümlülük, ətraf mühitin qorunması və xalqlararası sülhün təşviqidir. "Zayed İnsan Qardaşlığı Mükafatı" dünyada sülh, həmrəylik və dinc yanaşı yaşama prinsiplərini təşviq edən şəxslərə və qurumlara verilən nüfuzlu beynəlxalq mükafatdır. İndiyədək bu mükafata layiq görülənlər arasında BMT-nin Baş katibi Antonio Quterreş, İordaniya Kralı II Abdullah və kraliçası Raniyə Əl Abdullah, mərhum Roma Papası Fransisk, Misirin Əl-Əzhəri Şərifinin şeyxi, böyük imam Əhməd Əl-Tayyib, IMAD Assosiasiyasının təsisçisi və ekstremizmə qarşı fəal, əslən Mərakeşdən olan xanım Lətifə İbn Ziyaten, keniyalı sülh və icma fəalı xanım Şəmsa Əbubəkr Fadhil, Barbadosun Baş naziri xanım Mia Amor Mottley və digər şəxslər var.

### Beynəlxalq aləm tərəfindən verilən dəyər

"Zayed İnsan Qardaşlığı Mükafatı" sadəcə diplomatik uğurun deyil, həm də Azərbaycanın sülh gündəliyinin dünya tərəfindən qəbul edilməsinin təsdiqidir. Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) nüfuzlu Şeyx Zayed Fondu 2026-cı il üçün "Zayed İnsan Qardaşlığı Mükafatı"nın qaliblərinin adlarını açıqlayıb. Mükafata layiq görülənlər arasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də var.Bu barədə Şeyx Zayed Fondunun rəsmi internet səhifəsində məlumat verilib. Məlumatda qeyd edilir ki, bu mükafat Qafqazda onilliklər ərzində davam edən münaqişəyə və humanitar əzablara son qoyan - "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in paraflanmasına görə verilib.2026-cı ilin mükafatçıları dialoq və birgəyaşayış sahəsində tanınmış şəxslər və mütəxəssislərdən ibarət müstəqil beynəlxalq münsiflər heyəti tərəfindən seçilib.

"Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər komitəsinin üzvü və Mükafatın baş katibi Məhəmməd Əbdülsəlam deyib: "Bu il "Zayed İnsan Qardaşlığı Mükafatı" komitəsi Ermənistan və Azərbaycan arasında tarixi sülh müqaviləsini seçib. Bu müqavilə mükafatın dialoq və birgəyaşayış mədəniyyətinin təşviqi və inkişaf etdirilməsi sahəsindəki missiyasını və məqsədlərini özündə təcəssüm etdirir. Bu, qlobal sülhün irəliləməsində mühüm mərhələ və böyük diplomatik nailiyyət hesab olunur". Mükafatlar 2026-cı ilin fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində keçiriləcək təntənəli mərasimdə təqdim olunacaq. Onu da qeyd edək ki, Fond bir neçə sahə üzrə mükafatlar təqdim edir. Bu mükafatlar yalnız müstəsna xidmətləri olan şəxsiyyətlərə və qurumlara verilir. Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi isə Azərbaycanın həm regional, həm də qlobal miqyasda sülh quruculuğu prosesindəki aparıcı roluna beynəlxalq səviyyədə verilən yüksək qiymətdir.

***İLHAM ƏLİYEV***

# "Azərbaycan Mədəniyyəti - 2040"



Hüquqi, dünyəvi və demokratik dövlət, sosial rifah və mədəni müxtəliflik prinsiplərinin dərin kök saldığı müasir Azərbaycanda mədəniyyətin intibahı dövrün regional və qlobal çağırışları müstəvisində mühüm əhəmiyyət daşıyır. Azərbaycan Respublikasının ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin azərbaycançılıq məfkurəsi əsasında yeni milli ideologiyanın və buna əsaslanan yeni mədəniyyət siyasətinin formalaşdırılmasını şərtləndirir. "Azərbaycan mədəniyyəti - 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası qlobal və ölkədaxili çağırışlar nəzərə alınmaqla, Azərbaycanın milli kimliyinə əsaslanan müasir mədəniyyət modelinin yaradılması, inkişafı və 2040-cı ilədək digər mədəniyyətlərlə qarşılıqlı əlaqələrinin genişləndirilməsi üçün dövlət mədəniyyət siyasətinin istiqamətlərini müəyyən edən və mədəniyyət sahəsi ilə bağlı fəaliyyətə vahid, sistemli və dayanıqlı yanaşmanı təmin edən strateji planlaşdırma sənədidir. Sağlam mədəni və yaradıcı həyat tərzi fərdin, cəmiyyətin, dövlətin, habelə xalqın inkişafına hər zaman əhəmiyyətli təsir göstərmişdir. Mədəniyyətin həyat tərzinin tərkib hissəsi olması bu inkişafın əsas amillərindəndir. Azərbaycan Respublikasında milli-mənəvi dəyərlərin qorunmasını təmin edən müasir mədəniyyət modelinin yaradılması, mədəniyyət sahəsində sistemli və dayanıqlı inkişafın təmin olunması məqsədilə "Azərbaycan Mədəniyyəti - 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Konsepsiyada nəzərdə tutulan tədbirlərin əlaqələndirilməsini həyata keçirəcəkdir. Konsepsiyada nəzərdə tutulan tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat verəcəkdir. Konsepsiyada nəzərdə tutulan tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirəcəkdir.

Azərbaycan mədəniyyətinin müasir modeli fərdin mədəni həyatda daha geniş və yaradıcı iştirakına şərait yaratmaqla, dövlətin sosial, siyasi, iqtisadi və digər sahələrdə qarşısına qoyduğu strateji məqsəd və hədəflərə daha sürətlə çatmasına imkanlar açır. Bu model Azərbaycan Respublikasında dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin bərqərar olması, ölkənin rəqabətli insan kapitalı və innovasiyalar məkanına çevrilməsi üçün əsas vasitələrdən biri kimi çıxış edir. Sənədə əsasən, Konsepsiyanın uğurla həyata keçirilməsi və müasir mədəniyyət modelinin işlək olması üçün normativ hüquqi bazanın təkmilləşdirilməsi, idarəetmə formasının, müasir sosial-iqtisadi yanaşmanın və ahəngdar fəaliyyətin təmin edilməsi zəruridir. Azərbaycan Respublikasının mədəniyyət siyasəti dövlət siyasətinin tərkib hissəsi olmaqla, mədəni həyatın təmin edilməsi üçün əlverişli mühit yaradılmasına, milli-mənəvi dəyərlərin qorunmasına, mədəniyyətin tərbiyə potensialına və şəxsiyyətin formalaşması prosesində mədəniyyətdən istifadəyə əsaslanan istiqamətdir. Mədəniyyət sahəsində dayanıqlı inkişafa və Konsepsiyada müəyyən edilən məqsədlərə nail olmaq üçün bu sahədə dövlət siyasətinin mərkəzləşdirilmiş və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi zəruridir. Konsepsiya çərçivəsində Azərbaycan mədəniyyətinin müasir modeli aşağıdakıları nəzərdə tutur. Təşkilatlanmış mədəni iştirakçılıq Azərbaycan Respublikasının regional maraqlarının səmərəli şəkildə təmin edilməsində və qonşu ölkələrlə dostluq münasibətlərinin gücləndirilməsində mühüm rol oynayacaqdır. Azərbaycan mədəniyyətinin müasir modeli qlobal çağırışlara cavab verməklə yanaşı, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasını təmin edən mədəniyyət modelidir. Bu məqsədlə Konsepsiya milli mədəniyyətə yeni strateji baxışı şərtləndirir.

***Zümrüd BAYRAMOVA***

# 20 Yanvar:

## 36 il əvvəl və 36 il sonra




36 il... 20 Yanvar faciəsindən ötən dövrün hər ilində bu fikirlər xatırlanır: nə faciələr yaşayıb bu xalq. Daha doğrusu, nə faciələr yaşadılıb bu xalqa. Birinin bitdiyi, yaralarımızın qaysaq bağladığı anda yenisi hazırlanıb, yaşadılıb. Səbəb? Səbəb bir neçədir. Birincisi, xalqın qüruru, mübarizliyi, əyilməzliyi. Tarixin bütün dönəmlərində haqqını, hüququnu bilən xalqlar daim incidilib. İkincisi, yaranışdan tale payımız olan, qismətimizə düşən gözəl, bərəkətli torpaqlara sahib olmağımız. Buna çoxları göz dikib, tamah salıb. Üçüncüsü isə taleyimizin nisgilli tərəfi - erməni adlı bədxah, azğın, tamahkar qonşumuzun olması. Buna, əslində, qonşu da demək olmaz. Çünki biz binə olanda bu adda qonşumuz olmayıb. Sonradan torpaqlarımızın bir küncünə qısılıb "qonşu" olublar bizə.

### 36 ilin o başı...

Tarixin bütün dönəmlərində bu üç amildən doğan və zaman-zaman bir-birini əvəzləyən faciələrin növbətisi 1990-cı ilin 20 yanvarında Bakıda törədildi. Çox yazılıb bu barədə. Faciənin yaratdığı əsərlər qan çanağına dönüb, poeziya nümunələrindən qan süzüb, məqalələrdə, oçerklərdə, reportajlarda gənc ömürlər erkən çiçək açıb, vaxtsız solub, ataların beli bükülüb, analar ağlar qalıb. Televiziya ekranlarında, qəzet səhifələrində qərənfillər dil açıb bu faciənin dəhşətindən danışıb. Əllərin solmamış xınası, boş qalan məktəb partaları, qana boyanan tələbə biletləri, ali təhsili başa vurmaq haqqında diplomla ölüm arasındakı qısa zaman fasiləsi, bir də ki həmin gün doğulan atasız uşaqlar ürəklərə sevgili, ər, övlad dağı çəkib, silinməz nisgil həkk edib.

20 yanvar 1990-cı il. Müstəqil tariximizin şanlı səhifəsinə çevrilən həmin tarix əsrlərin zülmətinə bir nur saçır. Bu nurun ziyasında Azərbaycan xalqının illərlə zülmlərlə, məşəqqətlərlə üz-üzə dayanan, azadlıq, müstəqillik yolunda mübarizələrlə dolu çoxəsrlik tarixi vərəqlənir. Vərəqləndikcə də başına gətirilən müsibətlər, mübariz bir xalqın müstəqil olmaq arzusunun reallaşa bilməməsi səbəbləri açıqlanır, gözlər önündə canlanır.

1990-cı ilin azadlıq mübarizəsi bir ilin, iki ilin mübarizəsi deyildi. Əsrlərin qan yaddaşına hopmuş hisslərin yenidən coşması idi. Bir sözlə, müstəqillik arzusunun reallaşması üçün növbəti bir mübarizə idi. Xalq öz soy-kökündən qaynaqlanan hissləri ilə yenidən azadlığa can ataraq müstəqil yaşamaq istəyirdi. Elə bu arzu ilə də minlərlə soydaşımız 36 il əvvəl Azadlıq meydanına axışırdı. Günlərlə bu meydanda azadlıq istəklərini səsləndirir, bu istəklərin ozamankı hakimiyyətə çatdırılmasını, bu istəklərin həyata keçirilməsini tələb edirdi. Və qarşıda bu meydandakı minlərlə insanı nələrin gözləyəcəyini də təxmin edirdi. Çünki tariximizdən bizə azadlıq mücadiləsində başımıza gətirilən müsibətlər gün kimi aydın idi. Lakin Azərbaycan xalqı azad yaşamağı o qədər ürəkdən arzulayırdı ki, qarşıda onu nələrin gözlədiyini çox yaxşı bilə-bilə yenə də bu yoldan dönmürdü.

70 il sovet imperiyasının əsarəti altında yaşayan Azərbaycandan təbii ki, bu imperiya əl götürmək fikrində deyildi. Çünki bu xalqın milli sərvətlərinə çox yaxşı bələd idi və onun əlindən çıxması ilə əsla razılaşmaq fikrində də deyildi. Ona görə də bu mübarizəni yerindəcə boğmaq onların qarşılarına qoyduğu yeganə məqsəd idi.

Bəli, bir tərəfdən imperiya ünsürləri, digər tərəfdən isə hələ iki il öncə ermənilərin xalqımıza qarşı başladığı müharibə və onun hər gün neçə-neçə övladımızın həlak olması ilə davamı, ölkədəki ictimai-siyasi vəziyyət, dövlətimizin başında səriştəsiz rəhbərliyin olması Azərbaycanı olmazın çətinlikləri ilə üz-üzə qoymuşdu.

Yanvarın 19-da gecə saatlarında Azadlıq meydanına toplaşan insanların ölüm hökmünü verən, bunun üçün Azərbaycana ordu göndərən rus imperiyası nümayəndələri üçün buradakı insanların taleyi yox, onların ailələrindəki insanların nələr çəkəcəyi yox, 70 il sərvətini mənimsədikləri xalqın tarixinə özləri ilə bağlı qara sətirləri həkk edəcəkləri yox, nəyin bahasına olursa olsun, Azərbaycan adlı sərvətin əldən verilməməsi maraqlı idi. Elə bunun üçün də xalqımızı mübarizə yolundan döndərmək üçün nə bacarırdılarsa, onu da etdilər.

Lakin sinəsini güllə yağışı qarşısına sipər etməyi əvvəlcədən düşünən və buna hazır olan xalqın mübariz, coşqun hisli mərd oğul və qızları bu yoldan bircə addım belə geri çəkilmək fikrində deyildilər. Güllələr onlara tərəf tuşlandıqca, qarşıya doğru irəlilədilər. Bu, azadlıq uğrunda mübarizənin xalqımızın qəhrəmanlıq tarixində yeni mərhələsi idi. İllər öncə əldə olunmuş və əldən verilmiş azadlıq üçün mübarizənin son həddi idi. O günlər ya xalq bütövlükdə məhv olmalı, ya da əsrlərin arzularını gerçəkləşdirməli idi. Fikir qəti, iradə qəti, lakin xalq əliyalın idi. Həm də arxasında dayanan hakim qüvvə yox idi. Dövləti idarə edənlər düşmənə satılaraq millətin taleyini əsla düşünmək belə istəmirdi. Buna görə də xalq meydanda tək qalmışdı, ona heç bir dəstək, kömək yox idi. Tək güc qarşıya qoyulan məqsəd idi. Bu güc və iradə ilə hər kəs şəhid olmağa razı idi, nəinki mübarizə meydanından geri çəkilməyə. Beləliklə, 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə Bakıda qanli qətllər törədilsə də, azadlığa gedən yolun təməli qoyuldu. Xalq öz mübarizliyi ilə düşmənə sübut etdi ki, o, var-qüvvəsi ilə azadlığa can atır və bu yolda canından keçməyə hazırdır.

### Tək Bakıdamı yaşandı faciə?

Xeyr, 1990-cı ilin yanvarı Naxçıvan Muxtar Respublikasının alınmaz qalası Sədərəyin Kərki faciəsini də tarixə yazdı, Sədərək uğrunda onlarla igidin faciəli ölümünün başlanğıc nöqtəsi oldu, neçə-neçə ömürləri yarımçıq qoydu. Kərkinin tarixi, burada törədilən hadisələrlə bağlı Ümummilli Liderimiz Heydər Əliyev sonralar kərkililərlə görüşü zamanı bir neçə cümlə ilə tarixi bir açıqlama vermişdir: "Kərki kəndi Azərbaycanın ən gözəl guşələrindən biridir. Amma təəssüflər olsun ki, o vaxt bu xəritəni cızanda Azərbaycana düşmən olan insanlar elə etmişlər ki, Azərbaycanın Kərki kəndi Ermənistanın içində qalmışdı. Buna baxmayaraq, Kərki həmişə yaşayırdı. Ancaq 1990-cı ildə ermənilər hücum etdilər. Yaxşı yadımdadır, onda mən hələ bura gəlməmişdim. Sonra gəldim, mənə dedilər ki, kərkililər orada möhkəm müqavimət göstərdilər. Ancaq təəssüflər olsun ki, onda ermənilərlə birlikdə sovet ordusunun hissələri sizi öz kəndinizdən çıxardılar". Tarixə mərhum şair-publisist Vaqif Məmmədovun "Sədərəkdə yazılan gündəlik" kitabında yer alan faktlarla nəzər salaq: "13 yanvar 1990-cı il.

Dünənki plenumun gedişindən, yersiz münasibətlərdən, siyasi hadisələrin getdikcə gərginləşməsindən hiss olunur ki, Sədərək ağır təhlükə qarşısındadır   Düşmən yaxın vaxtlarda Sədərək üzərinə hücum edə bilər. Buna görə də bir gün də vaxt itirmədən öz səsimizi ucaltmalı, təcili tədbirlər görməliyik... Bu məqsədlə bu gün saat 14-də direktor işlədiyim Sədərək kənd 1 saylı orta məktəbdə kənd ağsaqqallarının, ziyalıların və digər nümayəndələrin ümumi yığıncağını keçirdik. 7 saata yaxın davam edən yığıncaqda son vaxtlar baş verən hadisələr ətraflı təhlil edildi, Sədərəyə Ermənistan tərəfdən böyük təhlükə gözlənildiyi etiraf olundu. Və 40-a yaxın təklif müzakirə olunandan sonra 270 nəfərin imzası ilə müraciət qəbul olundu. Gecə saat 10-da Şərurun mərkəzi poçtundan 5 ünvana (Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinə, Naxçıvan MSSR Ali Sovetinə, Nazirlər Sovetinə, Dövlət Təhlükəsizliyi Komitəsinə və Daxili İşlər Nazirliyinə) yola saldığımız müraciətdə aşağıdakı tələblər qoyulmuşdu:

1.Sədərək əhalisinin tam təhlükəsizliyi təmin edilsin.

2. Mövcud vəziyyət nəzərə alınmaqla Sədərək kəndində İliç rayon Daxili İşlər Şöbəsinin xüsusi bölməsi yaradılsın.

3. Sədərək ərazisində yerləşib inzibati cəhətdən Ermənistan SSR-in Artaşat rayonuna tabe olan sərhəd zastavası Naxçıvan MSSR-in sərhəd qoşunlarının ixtiyarına verilsin.

4. Kərkinin blokada vəziyyəti nəzərə alınmaqla Sədərəkdən Kərkiyə Cəhənnəmdərə istiqamətindən qısa vaxtda yol çəkilməsi üçün tədbirlər görülsün.

15 yanvar 1990-cı il    Müraciətdən 2 gün sonra yanvarın 15-də ermənilər Kərkiyə hücum etdilər    Səhər məktəbdə birinci dərs başlanana qədər Kərkiyə ermənilərin hücum etməsi xəbəri bütün kəndə yayılmışdı. Kərkidən sonra Sədərəyə də ermənilər tərəfdən hücum oluna biləcəyi gözlənildiyindən hamı narahatdır.

Kərkidə axşama qədər atışma getsə də, saysız daşnak xəyanətkarı qarşısında 20-25 nəfərin dözməsi mümkün olmadı. Müdafiəçilər çox inad etsələr də, rus hərbçiləri: "Daha sizin təhlükəsizliyinizi qorumağa bizim gücümüz çatmır, təcili kəndi tərk etməlisiniz, hamınızı girov götürəcəklər", - deyəndən sonra kəndin son müdafiəçiləri axşamüstü bütün cığırları qarla örtülmüş Cəhənnəmdərə-Qaraağac yolu ilə çox çətin vəziyyətdə özlərini Sədərəyə çatdıra bildilər. Qədim Oğuz yurdu olan Kərki rus hərbçilərinin əli ilə ermənilərə beləcə ərməğan edildi.

19 yanvar 1990-cı il. Səhər saat 11 radələrində məktəbdə gözlənilməz, o vaxta kimi bizə tanış olmayan bir səs eşitdik. Az sonra həmin səs təkrar olunanda hamı məktəbin həyətində idi. Arazdəyən tərəfdən ermənilər Sədərəyi aramsız top atəşinə tutmuşdular. Kinolarda gördüyümüz müharibə qoxusunu və qorxusunu hiss etdik    Bizi - məktəb kollektivini ən çox narahat edən odur ki, məktəbdə 1000 nəfərdən artıq uşaq var, kəndə də aramsız top mərmiləri yağır.

Çox möhkəm qar yağmasına, bərk şaxta olmasına baxmayaraq, Naxçıvanın bütün rayon və kəndlərindən - Şərurdan,?Ordubaddan, Culfadan, Nehrəmdən, Şahbuzdan, bütün bölgələrdən bu xəbəri eşidənlər Sədərəyin köməyinə gəlirdilər. Vəziyyət çox gərgin olduğu üçün qadınlar, qocalar, uşaqlar kənddən çıxarılır, əsasən, Şərura, bəziləri isə muxtar respublikanın digər kəndlərinə daşınırlar. Sədərəkdə kişilərin əksəriyyəti səngərlərdə, döyüşdə olduğundan çıxarılmalı əhali, əsasən, rayon rəhbərliyi tərəfindən ayrılmış avtobuslarla, bir də Sədərəyin köməyinə şəxsi maşınları ilə gələnlərin vasitəsilə həyata keçirilir.

Bu gün (yanvarın 19-da) axşam qaranlıq düşənə qədər sərhəddə döyüşlər getdi. Ermənistan tərəfdən kəndə mərmilər yağdırıldı. Xeyli insan yaralandı, 8 nəfər şəhid oldu. Onlar arasında balaca Malik və Elvin qardaşları da var.

20 yanvar 1990-cı il. Kənddə hamı təşviş içindədir. Dünənki faciə və yuxusuz gözlərin baxışları dəhşətlidir. Dünən kəndə qarşı törədilən erməni vəhşiliyi nəticəsində bizimkilərdən 8 nəfər həlak olub. Səhər saat 11 radələrində bir qara xəbər də aldıq. Guya fövqəladə vəziyyət yaratmaq adı ilə gecə Bakıya hərbi qüvvələr girib, həmin qüvvələrin qarşısına çıxan dinc əhali atəşə tutulub, yüzlərlə adam faciəli surətdə həlak olub. Azərbaycan faciəli, qara günlərini yaşayır".

Sədərəkdə yazılan gündəlik beləcə, bir neçə il davam edir. Bu faktları sadalamaqda məqsədim var. Tarixçi-alimlər haqlı olaraq qeyd edirlər ki, heç şübhəsiz, 1990-cı il yanvarın 20-də Bakıda baş verən hadisələri muxtar respublikanın ermənilərlə həmsərhəd olan rayonlarında, xüsusilə də Sədərəkdə və Dağlıq Qarabağdakı erməni təcavüzündən ayrıca təhlil etmək düzgün olmazdı. Çünki Azərbaycan həmin dövrdə qonşu Ermənistanın təcavüzünə də məruz qalmışdı. Belə bir şəraitdə sovet rəhbərliyi nəinki münaqişənin qarşısını almaq üçün qəti tədbirlər görməmiş, əksinə, Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantları da daxil edilmişdi.

### Nə üçün həm Bakı, həm də Naxçıvan?

20 Yanvar... Nə üçün həm Bakı, həm də Naxçıvan? Bir ayın iki böyük təcavüzkar hadisəsinə tarixçi-alim, dosent Elçin Zamanov belə açıqlama gətirir: - Hadisələri geosiyasi kontekstdə incələyərkən Bakıya qoşunun məhz yanvarın 19-20-də yeridilməsi ilə Naxçıvana eyni vaxtda Ermənistanın işğalçı qüvvələrinin hücumunun üst-üstə düşməsi Moskvada əvvəlcədən hazırlanmış bir planın həyata keçirilməsini gün kimi açığa çıxarır. Bir anlıq tarixə nəzər salsaq, bolşevik Rusiyasının Bakını işğal etmək üçün erməni amilindən yararlanması faktının şahidi olarıq.

### Mühüm faktor: Ümummilli Lider Heydər Əliyevin Naxçıvana qayıda bilməsi məsələsi

Tarixçi-alim onu da qeyd edir ki, Moskvanı narahat edən ən mühüm faktor Ulu Öndər Heydər Əliyevin Naxçıvana qayıda biləcəyi və özünün mühüm tarixi liderlik missiyasını yerinə yetirəcəyi məsələsi idi. Buna görə də Naxçıvanın işğalı planlaşdırılırdı. Bu işğal Azərbaycan milli şüuruna 20 Yanvar faciəsindən də dəhşətli bir zərbə olacaqdı. Eyni zamanda həm də Türkiyə ilə Azərbaycanın, həmçinin böyük Türk dünyasının ən mühüm geostrateji əlaqə qovşağına çox ciddi bir tarixi zərbə endirəcəkdi. Ümummilli Liderimizin həmin taleyüklü zamanda Naxçıvana dönüşü həm Moskvanın, həm də ermənilərin böyük planlarını pozmuş oldu. Bəli, o zaman yalnız ümummilli liderimiz Heydər Əliyev bütün çətinliklərə baxmayaraq, siyasi iradə nümayiş etdirərək Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəlib, SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edərək bəyanatla çıxış etdi. Bundan sonra böyük şəxsiyyətin Naxçıvana gəlişi isə mərkəzin Bakı planını da, Naxçıvan planını da alt-üst etdi. Azərbaycan rəhbərliyinə qayıdışdan sonra ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ilin yanvar ayında Milli Məclisdə Azərbaycan xalqına qarşı təcavüzkar 20 Yanvar hadisələrinə siyasi qiymət verildi.

36 il əvvəl ilə bugünkü fərq göz qabağındadır. 20 Yanvar hadisəsinin baş verdiyi dövrdə həm də torpaqları işğal olunan Azərbaycan indi qalib bir ölkədir. Həm də suverenliyi, konstitusiya quruluşu tamamilə bərpa olunmuş ölkə. Xalqımız bu qalib ölkənin başı dik, alnıaçıq, qürurlu insanlardır. Bu qüruru bizə bəxş edən ölkəmizin rəhbəri, Ali Baş Komandan cənab İlham Əliyevə və Milli Ordumuzun qəhrəman oğullarına daim minnətdarıq. Çünki Qarabağ tariximizin qara ləkəsi idi. Onlar bu qara ləkəni təmizlədilər, 20 Yanvardan ötən 36 ilin müəyyən zamanlarında şəhid olan övladlarımızın qisasını aldılar. Azərbaycanın adını yenidən qeyrət və qüdrətləri ilə bütün dünyaya yaydılar. Biz onlarla qürur duyuruq.

***Mətanət Məmmədova***

# Uşaq qidasında qiymət oyunu

***Uşaq qidaları valideynlərin ən çox xərclədikləri məhsul kateqoriyalarından biridir - xüsusilə körpə südü, süni formula və əlavə qidalar. Bazarda qiymətlər geniş diapazonda dəyişir və bu fərqlər valideynləri düşündürür: "Bahalı uşaq qidası mütləq daha keyfiyyətlidir?" Bu suala cavab axtararkən həm qiymət və tərkib arasındakı əlaqəni, həm də qida təhlükəsizliyi və qida növlərinin fərqlərini araşdırmaq vacibdir. SİA mövzu ilə bağlı araşdırma edib.***



## Uşaq qidalarının qiymət fərqləri - Azərbaycan bazarında vəziyyət

Uşaq qidalarının qiymətləri son zamanlar artmaqdadır. 6 aylıq körpə üçün nəzərdə tutulan qidalar təxminən 25 manatdan 31 manat və daha yuxarı qiymətə satılır. Ən bahalı məhsullar apteklərdə 80 - 100 manat civarına yüksələ bilir, xüsusilə yüksək kateqoriyalı və emal edilmiş qidalar. Eyni marka uşaq qidası fərqli mağazalarda müxtəlif qiymətlərdə satılır (məsələn, bəzi markalar 7 - 11 manat arası dəyişir).

Bu məlumatlar göstərir ki, bazarda ciddi qiymət fərqləri mövcuddur və bu, həm məhsulun markasına, həm də satış nöqtəsinə görə dəyişir.

## Qiymət və keyfiyyət arasında əlaqə

*Sadəcə qiymətə baxmaq kifayət deyil*

Bir çox pediatr və qidalanma mütəxəssisi bildirir ki, ən bahalı uşaq qidası mütləq ən keyfiyyətli demək deyil:

Uşaq qidalarının bəzi bahalı növlərinin tərkibi ilə daha münasib qiymətli məhsullar arasında ciddi fərq olmaya bilər. Bu, ucuz və bahalı məhsulların tərkibində əsas qida maddələrinin oxşar olması ilə bağlıdır. Qida məhsullarının markalaşdırılması, marketinq və qiymət siyasəti bəzən yalnız qiyməti artırır və buna görə də bahalı məhsul mütləq daha faydalı demək deyil. Bu səbəbdən yalnız qiymətə görə keyfiyyət dəyərləndirmək düzgün deyil.

## Tərkib və qida dəyərinin rolu

Dünyada aparılan araşdırmalar göstərir ki, supermarketlərdə satılan çoxlu uşaq qidalarında zərərli və lazımsız komponentlər yüksək ola bilər:

-ABŞ-da aparılan bir tədqiqat, satılan körpə qidalarının təxminən 60%-nin qida dəyəri baxımından "məhdud sağlamlıq" standartlarına cavab vermədiyini göstərdi - çox şəkər/sodium və yetərsiz protein kimi problemlər oldu.

-Bəzi "səhər yeməkləri və pouches" kimi preparatlarda isə vitamin və dəmir kimi həyati əhəmiyyətli qida maddələrinin aşağı səviyyədə olduğu aşkar edilib. Bu nəticələr göstərir ki, təhlil olunan məhsulların keyfiyyəti yalnız qiymətə görə qiymətləndirilməməlidir. Belə məhsulların bəzi hallarda düzgün qida balansı təmin etmədiyi də müşahidə olunub.

Əhəmiyyətli kriteriyalar:

-Vitaminlər və minerallar (A, C, D, dəmir və s.)

-Azaldılmış şəkər və sodium

-Mexaniki əlavə olunmuş konservantların azlığı

-İstehsal standartları və sertifikatlar

Bu kriteriyalar məhsulun uşaq üçün daha faydalı və təhlükəsiz olmasına kömək edə bilər.

Bahalı vs Ucuz - Necə seçim etməli?

Bahalı qidalar nəyə görə bahalıdır?

Bahalı məhsullar tez-tez aşağıdakı keyfiyyətlərlə əlaqələndirilir:

-Təbii və yüksək keyfiyyətli xammal

-Daha mükəmməl emal və qida balansı

-Ümumiyyətlə yaxşı marka təcrübəsi

Amma bu bütün hallarda doğru olmaya bilər və bu yalnız qiymətə əsaslanmamalıdır.

## Ucuz qidalar nə vaxt yetərlidir?

Ucuz məhsullar da aşağıdakı halda yaxşı seçim ola bilər:

-Etiketdə vacib vitamin və minerallar mövcuddur

-Tərkibdə əlavə şəkər və natrium yüksək deyil

-Azərbaycanda və ya beynəlxalq standartlara uyğun sertifikatlara malikdir

Deməli, ucuz = pis deyil, bahalı = mütləq yaxşı deyil.

Nəticə: Bahalı məhsul - mütləq keyfiyyətli deyil

Qiymət uşaq qidalarının keyfiyyətini tam göstərmir.

Valideynlərə tövsiyə olunur:

-Etiketdəki qida maddələrini oxuyun

-Vitamin və minerallara diqqət yetirin

-Ana südü ilk altı ay üçün ideal qidadır

-Süni qida seçərkən pediatr məsləhəti alın.

***Ayşən Vəli***

# Qorbaçovun QARA ÜZÜ

**Mətləb Salahov: "Bu siyasi cəllad ona tapşırılmış missiyanı daha dağıdıcı şəkildə reallaşdırmaq üçün Bakı qırğınına üstünlük verdi"**



"36 il öncə öz azadlığı üçün ayağa qalxan böyük bir xalqın istiqlal arzusunu boğmaq üçün Bakıya ordu yeritmək, yüzlərlə günahsız insanı öldürmək o zamankı Kreml rəhbərliyinin, şəxsən Mixail Qorbaçovun bəşəri cinayəti idi. Siyasi səbəblərə görə Nobel "Sülh mükafatı" verilmiş bu siyasi cəllad ona tapşırılmış missiyanı daha dağıdıcı şəkildə reallaşdırmaq üçün Bakı qırğınına üstünlük verdi."

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, o zaman SSRİ-nin digər bölgələrində də rejim əleyhinə böyük etiraz dalğaları baş qaldırıb, Gürcüstan və Pribaltika ölkələrində sovet rəhbərliyi əleyhinə etirazlar olsa da M.Qorbaçov ətrafındakı erməni şovinist müşavirlərinin istəyi ilə Bakıdakı azadlıq mübarizəsini qana boğmaq, SSRİ daxilində daha vahiməli vəziyyət yaratmaq üçün 200-ə qədər vətənpərvər azərbaycanlını qətlə yetirdi, 1000 nəfərə qədər fədakar vətəndaşımız yaralandı. "20 yanvar faciəsi həm də Azərbaycan tarixinə qanla qazanılmış azadlıq səhifəsi kimi daxil olub. Moskvadakı emissarlar və onların Bakıdakı siyasi nökərləri bu faciənin baş verməsi üçün çalışdılar. İkiyə bölünmüş Almaniyanın birləşdirilməsinə, SSRİ-nin süqutunu reallaşdırdığına görə Nobel Sülh mükafatı verilmiş M.Qorbaçov ilk əvvəl Azərbaycan xalqı və azadlıq tarixinə ÜZÜQARA, insanlığa qarşı terror törətmiş, azadlığa qarşı silah tuşlayan alçaq kimi xatırlanacaq."

***Afət Tahirqızı***



Elçin Bayramlı

# Məktəblərdə şagird özbaşınalığının səbəbi nədir?

**Son illərdə məktəblərdə şagird özbaşınalığı və intizamsızlıq artmaqdadır. Artıq vəziyyət o yerə gəlib ki, bəzi müəllimlər buna dözməyb işdən çıxırlar. Şagirdyönümlü təhsil siyasəti adlandıran sistemin tətbiqi daha çox məni nəticələrə səbəb olub.**

Biz müəllim və şagird arasındakı problemləri həll etmək üçün nə etmək lazım olduğunu uzun illərdir deyirik. Sosioloqlar, təhsil ekspertləri, pedaqoqlar, ziyalıların bu məsələləri daim qabartmasına baxmayaraq, Elm və Təhsil Nazirliyinin məsul şəxsləri deyilənləri qulaqardına vurur.

Məktəblərdə baş verən hadisələrə, habelə müəllim-şagird münasibətlərində yaranmış problemlərə baxarkən aydın şəkildə görünür ki, bunun səbəbi təhsilin başında aparılan eksperimentlərlə bağlıdır. Guya şagirdyönümlü tədris proqramı, kurikulum sistemi yaradılır, beləliklə şagirdə tam "volya" verilir ki, nə istəsə etsin, müəllimlərə isə deyirlər ki, "dəymətoxunma".

Məsələnin digər tərəfi də budur ki, valideynlər uşaqlarına tərbiyə verməyi tərgidiblər. Cəmiyyətimizdə kütləvi surətdə uşaqlara tərbiyə verilməsi artıq yoxdur. Hazırda ailənin mərkəzində uşaq dayanır. Ata, ana bunun nazıyla oynamalı, bütün tərbiyəsizliklərinə dözməli, istədiyi şey isə dərhal qarşısında hazır olmalıdır. Belə uşaq böyütmək prinsipi və xəstə təfəkkür bizə necə gəldi, bilmirəm, amma bütün cəmiyyətə virus kimi yoluxdu. Bunun da nəticələri ortadadır.

Məktəblərdə baş verənlərdə günah müəllimdə yox, uşaqlarda yox, valideynlərdədir. Burada müəllimlərin, məktəbin tərbiyə vermək hüququ əlindən alınıb, sadəcə təhsil vermək imkanı saxlanıb. Məktəb təlim-tərbiyə ocağıdır və yüz illərlə də belə olub. Təhsillə tərbiyə eyni vaxtda verilməlidir. Əgər tərbiyə yoxdursa, heç bir təhsildən söhbət gedə bilməz.

Belə çıxır ki, biz uşaqlarımızı robota çevirmək və sadəcə beyninə informasiya yükləmək üçün məktəbə göndəririk. Biz insan yetişdirməyə çalışmırıq. Belə olan halda da görürük ki, bu uşaqların öyrəndikləri bir qara qəpiyə dəymir.

Təhsilin başındakı eksperimentləri qurtarmaq lazımdır. Əlvəlki ənənəvi sistemə qayıtmaq lazımdır. Biz görürdük ki, əvvəllər müəllim-şagird münasibətləri necə idi, indi necədir. Bu da onu göstərir ki, son dövrlərdə aparılan eskperimentlər biabırçı və faciəvi nəticələr verib. Bunu dayandırmaq lazımdır. Biz bunu nazirliyə deməkdən yorulmuşuq. Lakin nazirlik bunlara əhəmiyyət vermir.

Hansı problemi qaldırırsansa, ondan da betərini gətirir. Mənə maraqlıdır ki, bunların məqsədi nədir?! Nə fikirləşirlər?! Bizim uşaqlarımız tamamilə tərbiyəsizləşir, eqoist, narsist olurlar. Bununla bağlı nə fikirləşirlər?! Belə biabırçı məktəb lazım deyil. Ona görə də ya məktəbi ləğv etsinlər, ya da normal, insani bir təhsil sistemi qursunlar. Bəziləri iddia edir ki, məktəbdə şagirdlərə heç bir tənbeh və nəzarət olmamalıdır. Kim deyir ki, cəza mexanizması olmamalı, uşağa qulaqburması verilməməlidir?! Bunu haradan çıxarıblar? Onda Cinayət Məcəlləsini ləğv etsinlər ki, kim nə istəyir, etsin. Cəzalanmayan uşaq tərbiyəsiz, qudurğan uşağa çevrilir. Çünki o başa düşür ki, ona heç kim heç nə edə bilməz və kefi istəyəni edəcək. Bizim vaxtımızda müəllim bizə valideyn kimi yanaşırdı və yeri gələndə tənbeh də edirdi. Bu gün ortada gördüyümüz Azərbaycanın bütün dəyərli ziyalıları həmin o uşaqlardır. Onların heç biri nə terrorçu, nə cibgir, nə də tərbiyəsiz olmayıb. Belə olmalıdır və uşaq başa düşməlidir ki, etdiyi hərəkətin cəzası var. İndi isə deyirlər ki, uşaq nə istəyir etsin. Bunun axırı ona gətirib çıxarır ki, bir azdan uşaqlar Amerikadakı kimi məktəbə bomba qoyub partladacaqlar. Bunlar anarxiya və özbaşınalığa gətirib çıxarır. Bu səbəbdən məktəblərə, müəllimlərə tərbiyə funksiyası geri qaytarılmalı və uşaqlara evdə ciddi tərbiyə verilməlidir. Məktəbdə özbaşınalıq edən şagirdin valideyni cəzalanmalıdır.

# Ölkəmizin tarixində unudulmaz səhifə

***20 Yanvar Azərbaycan tarixində təkcə faciə deyil, Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. Bu tarix həm də kimin kim olduğunu sübut edən növbəti imtahan idi.***






*Mübariz İsmayılov, ”20 Yanvar” İctimai Birliyinin Binəqədi rayon şöbəsinin sədri*

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda sovet ordusu tərəfin-dən dinc əhaliyə qarşı dəhşətli, kütləvi qırğın hadisəsi törədildi. Həmin gecə birbaşa Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilmişdir. Bu, Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, ərazi bütövlüyü, suverenlik uğrunda mübarizliyini məhv edib sındırmaq məqsədi daşıyan mənfur planın tərkib hissəsi idi. Mixail Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda "erməni kartından" məharətlə istifadə etdi. Bu qanlı hadisənin törədilməsində əsas məqsədlərdən biri öz haqlı tələblərini irəli sürən, bu tələblərə demokratik yollarla nail olmaq istəyən, istiqlaliyyət, azadlıq, suverenlik istəyində olan Azərbaycan xalqının iradəsini qırmaq, insanların müstəqillik arzularını tankların tırtılları altında əzmək idi. Sovet imperiyası günahsız insanların qanını axıtsa da, xalqımıza qarşı misli görünməmiş qəddarlıq etsə də, istəyinə nail ola bilmədi, milli qürurumuzu qıra bilmədi. Xalqın başına gətirilən bu cinayət sovet imperiyasının iç üzünü bariz bir şəkildə ortaya çıxartdı. Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və ətraf rayonlarında 147 nəfər öldürülüb, 744 nəfər yaralanıb. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri olmuşdur.

Xalq o günlərdə böyük bir həqiqəti - meydanda həqiqi liderin olmamasını da bütün mahiyyəti ilə dərk etdi. O müdhiş günlərdə Heydər Əliyevin - qüdrətli liderin respublikada yoxluğu günün ən böyük həqiqəti kimi dərk olundu. Amma Bakıda olmamasına baxmayaraq, xalqının səsinə hər kəsdən əvvəl səs verən də elə Heydər Əliyev oldu. Ümummilli liderimiz Moskvada xüsusi nəzarət altında ola-ola, özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, hadisələrdən dərhal sonra, 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək təcavüzə kəskin etirazını bildirdi, faciəni törədənləri, şəxsən M.Qorbaçovu kəskin ittiham etdi, qoşunların Bakıdan çıxarılmasını tələb etdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1990-cı il 21 yanvar tarixli bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət idi - özü də imperiyanın mərkəzi Moskvada.

Onu da qeyd etmək istəyirəm ki, 20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi tələbi ilə dəfələrlə çıxış edən Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gəldikdən sonra bu mövzunu unutdu. Onlar hakimiyyətdə olduğu dövrdə faciəyə siyasi qiymət vermək üçün öz imkanlarından istifadə etmədi. 1993-cü ilə qədər Azərbaycana rəhbərlik edən şəxslərin heç biri bu faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı.

Lakin Ulu öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra bu məsələ yenidən gündəmə gəldi, 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atıldı.

Ulu öndər şəhidlərin ailələrini dövlət qayğısı ilə əhatə etdi. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı hər zaman dövlət başçısının diqqətində olub. 1993-cü ildən üzü bəri 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər görülüb və bu gün də görülməkdədir. Azərbaycan Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə 20 Yanvar təcavüzü zamanı yüksək vətəndaşlıq nümunəsi göstərərək həlak olmuş Azərbaycan Respubli-kası vətəndaşlarına "20 Yanvar şəhidi" fəxri adı verilib, ”1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında” 2003-cü il 15 yanvar tarixli sərəncama əsasən, əlil olmuş şəxslərə verilən aylıq müavinət artırılıb və bu iş indi də davamlı olaraq həyata keçirilir.

Prezident cənab İlham Əliyev 20 Yanvar faciəsində qətlə yetirilənlərin, müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub. Ölkəmizdə bu istiqamətdə böyük tədbirlər həyata keçirilir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir. Ölkənin iqtisadi durumunun yüksəlməsi özünü bu qəbildən olan insanların həyat və məişətində daha qabarıq göstərir. 2006-cı il yanvarın 19-da ölkə başçısının fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilib. Şəhid ailələrinin və əlillərin hər birinə göstərilən diqqət və qayğı bizlərdə qürur, fərəh hissi yaradır.

Bu il xalqımız 20 Yanvar hadisələrinin 36-cı ildönümünü qeyd edir, igid övladlarının fədakarlığını məhəbbətlə xatırlayır, onların əziz xatirəsini böyük ehtiramla yad edir. Bakının ən möhtəşəm məkanında Vətən uğrunda canlarını qurban vermiş mərd, igid oğul və qızlarımızın uyuduğu Şəhidlər xiyabanı xalqımız üçün müqəddəs bir and yerinə, milli iradəmizin şanlı-şərəfli bir salnaməsinə çevrilib. Şəhidlərimiz və Şəhidlər xiyabanı azadlığımızın, müstəqilliyimizin, milli iradəmizin simvolu kimi bundan sonrakı nəsillərə də bir qürur mənbəyi olacaqdır.

Qanlı yanvar hadisələri Azərbaycan milli kimliyinin formalaşmasına təsir göstərib. Tarixi yol keçən Azərbaycan Ordusu 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə cəmi 44 gündə 30 illik işğala son qoyaraq ölkəmizi qalib ölkəyə çevirdi. 2023-cü ilin sentyabrında Qarabağda keçirilmiş antiterror tədbirləri nəticəsində suverenliyimiz və ərazi bütövlüyümüz tam bərpa olundu. Qəti iradə və müdrik xarici siyasət, ordumuzun qəhrəmanlığı və şücaəti, xalqımızın birliyi və həmrəyliyi nəticəsində erməni işğalçıları həm hərbi, həm də siyasi meydanda ağır məğlubiyyətə uğradıldı, böyük qələbə qazanılaraq tarixi ədalət bərpa olundu, xalqın inamı özünə qaytarıldı.








# “Ağanəzərəm, belə gəzərəm”: bitdi!

***Ötən gün Prezident İlham Əliyev əksəriyyətimizin narahat olduğu bir məsələnin həllində əhəmiyyətli bir dəyişikliyə imza atıb. Söhbət ”İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsindən gedir.***

Dəyişikliyə görə kütləvi nümayiş etdirildiyi halda ictimai mənəviyyatı təhqir edən, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən hərəkətlərin edilməsinə, yəni əxlaqsız ifadələrin səsləndirilməsinə və ya belə məzmun təəssüratı yaradan jestlərin edilməsinə, yaxud insan bədəninin hissələrinin əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd formada göstərilməsinə dair məlumatlar yayan şəxslər qanunla məsuliyyət daşıyacaqlar.

Bu dəyişiklik ölkədə mənəviyyatın, mədəniyyətin, milli-mənəvi dəyələrin mühavizə edilməsində istisnasız mühüm rol oynayacaq. Çünki hər gün yenisi peyda olan sosial şəbəkə fenomenlərinin ”xüsusi fədakarlığı” sayəsində sosial şəbəkələrdə ciddi əxlaqi deformasiyalar yaranır və bu deformasiyaların bərpası da mümkün olmur.

Doğrudur, sosial şəbəkələrin süzgəc mexaanizmləri sayəsində zərərli, təhlükəli kontentlər yaymlanma qadağası ilə üzləşir, lakin bir çox hallarda bu sistemin də mühavizəsi yetərli olmur. Qlobal miqyasda zorakılıq ehtiva edən videoların yayılması, tıklanması göstərir ki, mərkəzləşmiş platforma siyasətlərinə baxmayaraq, zorakı və zərərli kontent çox vaxt geniş auditoriyaya çatır və zərər göstərir. Deməli, süni intellektlə idarə olunan sosial şəbəkə süzgəc sistemləri bəzən yetərsiz qalır.

Bir başqa diqqətə alınmalı məsələ də odur ki, qlobal təhlükə ərz etməyən bəzi kontentlər bəzən lokal təhlükə yarada bilir. Bu, ölkənin, cəmiyyətin milli dəyərlərinə, ənənələrinə, mental xüsusiyyətinə əsaslanan vəziyyətdir. Dünyanın hər hansı bir ölkəsində ombasını kameraya tərəf çevirib seksual hərəktlər ehtiva edən rəqs nümayiş etdirmək adı hal sayıla bilər, bizim ölkəmiz üçün bu normal hal deyil.

Etik, əxlaqi, mədəni baxımdan qlobal standartların yaradılması çətindir, çünki bir ölkədə normal sayılan hərəkət başqa bir ölkədə anormal hesab edilir. Porno xidmətlərin leqal olduğu hər hansı bir ölkədə seks xidmətləri göstərən bir qadın sosial şəbəkə hesabında bunu açıq formada elan edə bilər, amma Azərbaycan üçün bu cür kontentlərin nümayiş etdirilməsi normallaşdırılmamalıdır.

Əxlaq anlayışı hər ölkə üçün fərqli məna daşıyan məfhumdur. Bir ölkədə düzgün hesab edilən davranış başqa bir ölkədə yanlış təsir bağışlayır. Məsələn, bizim böyüklərə, qadınlara ictimai nəqliyyatda yer vermək kimi bir adətimiz İsveç, Norveç kimi ölkələrdə gender bərabərliyinin pozulması, kişinin qadın üzərində güc nümayişi kimi qəbul edilə bilir. Bu tip ölkələrdə ”kömək istəməyənə kömək təklif etmə” prinsipi hökm sürür.

Bir ölkədə qəbul olunan hər hansı bir ictimai davranış forması başqa bir ölkədə qəbul olunmayan vəziyyətdir. Məsələn, bizim ölkəmizdə ictimai yerlərdə açıq və ya yarıaçıq tualetin olması ədəbsizliyin göstəricisidir, Niderland, Almaniya kimi bəzi ölkələrdə rahatlığın və punktuallığın. Bir ölkədə qadınların saçının görünməsi əxlaqsızlıq hesab edilir, bir çox ölkədə bu tamamilə normal vəziyyətdir. Yəni, əxlaq və ədəb çərçivəsinə girən bir çox davranış nümunələri ölkəsinə, cəmiyyətinə görə fərqli qəbul edilə bilər.

Azərbaycan üçün də sinəsini, ombasını kamera önündə nümayiş etdirmək, seksual hərəkətlər ehtiva edən rəqs nümayiş etdirmək, söyüşlə zəngin danışıq üslubundan istifadə etmək normal vəziyyət deyil. ”Deyildi” - bir zamanlar. İndi normallaşıb. Sosial şəbəkələrdəki videoların əksəriyyətinin məzmunu budur.

Prezidentin imzaladığı yeni dəyişiklik bu sahədəki biabırçılığın qarşısını əhəmiyyətli dərəcədə alacaq. İnsanlar sosial şəbəkələrdə nümayiş etdirdikləri davranışın, istifadə etdikləri sözün məsuliyyətini daşıdığının fərqində olacaq. ”Ağanəzərəm, belə gəzərəm” dövrü bitdi daha. Qeyd etməliyəm ki, bu qanun dəyişikliyinin imzalanması prosesinə qədər olan yolda jurnalistlərin, ictimai şəxslərin də əməyi az deyil. Əksəriyyətimiz mütəmadi olaraq əxlaqi normalara sığmayan paylaşımlar haqqında fikir bildirir, material hazırlayır, gündəmdə saxlayırdıq. Mənəviyyatı hər şeydən uca tutan insanların bir amalı var - mənəviyyata təcavüz edənlərə qarşı mübarizə aparmaq, ictimai əxlaqı mühavizə etmək, mənəvi dəyərləri hər şeydən ali tutmaq. Təmənnamız, televiziya kanallarına nəzarətin gücləndirilməsi, dəvət olunan qonaqların ictimai çəkisinə diqqət edilməsi, bəzi aparıcıların efirə uyğun olmayan davranış və danışıq üsulubuna da əncam çəkilməsi yönündədir.

***Lalə Mehralı***

# Qlobal pandemiya:
## yoluxma sayı 1 milyardı keçdi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb*



***Dünya əhalisi, həmçinin də uşaqlar və gənclər arasında piylənmə nisbətlərinin artması həyəcan verici həddə çatıb. Araşdırmalar göstərir ki, 2035-ci ilə qədər dünya əhalisinin yarısı piylənmə və ya artıq çəki problemləri ilə üzləşəcək. Bu isə, həm sağlamlıq, həm də iqtisadi cəhətdən son dərəcə ağır problemdir.***



### Qlobal piylənmə tendensiyası rəqəmlərdə

Qlobal miqyasda geniş yayılmış sağlamlıq problemi olan piylənmə pandemiya kimi təsvir olunur. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesablamalarına görə, dünyada 1 milyarddan çox insan piylənmədən əziyyət çəkir.

Hazırda, bu şəxslərin təxminən 900 milyonu böyüklər, 160 milyonu isə uşaqlardır.

Yetkin insanlarda piylənmənin ən yüksək yayılmasının olduğu 3 bölgə Amerika (29%), Avropa (23%) və Şərqi Aralıq dənizi bölgəsidir (21%).

Aparıcı mövqedə olan ABŞ-da 20 və daha yuxarı yaşda olan yetkinlərin 31,1%-nin artıq çəkili olduğu; 42,5%-nin piylənmə vəziyyətində olduğu; piylənmədən əziyyət çəkənlərin isə 9%-nin morbid piylənmədən (piylənmənin ən ağır forması) əziyyət çəkdiyi göstərilmişdir. Bu artım tempi davam edərsə, 2030-cu ilə qədər ABŞ-ın bir çox ştatında piylənmənin yayılmasının 50%-ə çatacağı proqnoz edilir.

Avropa bölgəsində yetkinlərin 59%-i artıq çəki və ya piylənmədən əziyyət çəkir. Uşaqlarda da vəziyyət oxşardır; bildirilir ki, təxminən hər 3 uşaqdan 1-i (oğlanların 29%-i, qızların 27%-i) artıq çəki və ya piylənmədən əziyyət çəkir. Uşaqlar arasında piylənmə nisbətinin artması çox narahatedicidir. Şübhəsiz ki, bu, gələcəkdə bizə daha böyük sağlamlıq problemləri yaradacaq.

### Ölkələrə görə piylənmə nisbətləri:

1- ABŞ (36.2%)
2- Türkiyə (32.1%)
3- Yeni Zelandiya (30.8%)
4- Kanada (29.4%)
5- Avstraliya (29%)
6- Meksika (28.9%)
7- Çili (28%)
8- Birləşmiş Krallıq (27.8%)
9- Macarıstan (26.4%)
10- İsrail (26.1%)

ÜST-ün hesabatlarına görə ABŞ, Çin, Braziliya, Hindistan və Rusiyada piylənmə halları dünya üzrə piylənmənin təxminən üçdə birini təşkil edir. Britaniyalıların təxminən 64 faizi, amerikalıların isə 68 faizi piylənir.

Türkiyə piylənmə üzrə Avropa lideridir. Bu ölkədə yetkin əhalinin 66,8%-i artıq çəkili, 32,1%-i isə piylənmədən əziyyət çəkir.

Bu cəhətdən dünyanın ən sağlam ölkəsi 18,3% ilə Vyetnam olub. Ən pis göstərici isə Naurudadır (88%).

### Səbəblər nədir?

2023-cü il Dünya Piylənmə Xəritəsi Hesabatına görə, piylənmənin artmasının əsas səbəbləri bunlardır:

- Oturaq həyat tərzi
- Emal olunmuş qidaların istehlakının artması.
- Sağlam qida istehsalı və paylanmasında kifayət qədər nəzarətin olmaması
- Səhiyyə sisteminin piylənmə ilə mübarizə aparmaq üçün kifayət qədər resurs və vaxt ayırmaması.

Yemək yediyimiz zaman mədə və nazik bağırsaq divarlarında gərginliyin yaratdığı siqnallar beyinə ötürülür və qida qəbulundan sonra bağırsaqlardan ifraz olunan müəyyən hormonların köməyi ilə toxluq hissi yaranır. Bu hormonal pozğunluqlara əlavə olaraq, xəstələrin psixososial vəziyyətləri və peşə amilləri də buna səbəb ola bilər.

Piylənmə aclıq hormonlarının artması, toxluq hormonlarının azalması və ya onların təsirlərinə qarşı müqavimət, insulin müqaviməti və xüsusən də genetik faktorlar olduqca və hormonal sistemimizdə pozğunluqlar yarandıqda olduqda daha çox artır.



Eynilə, bədənin metabolik sürətini tənzimləyən tiroid hormonları, kortizol (stress hormonumuz), böyümə hormonları və yumurtalıq kistası xəstəlikləri kimi bir çox vəziyyət piylənmənin səbəbləri ola bilər.

Hesabatda piylənmə nisbətlərinin artmasının qlobal iqtisadiyyata əhəmiyyətli bir yük yaradacağı və bunun qlobal ümumi daxili məhsulun 3%-nə bərabər olacağı vurğulanır. Piylənmə ilə mübarizəyə sərf olunan vəsaitin 2035-ci ilə qədər ildə 4 trilyon dolları keçəcəyi barədə xəbərdarlıq edilir.

### Piylənmənin yaratdığı xəstəliklər

Metabolik sindrom, insulin müqaviməti, diabet, ürək-damar xəstəlikləri, ürək çatışmazlığı, insult, böyrək çatışmazlığı, yuxu apnesi və aritmiya kimi bir çox həyati və baha başa gələn xroniki xəstəliklər təəssüf ki, birbaşa piylənmə ilə bağlıdır.

ÜST-nin rəyinə görə, piylənmə və artıq çəki insan ömrünü ən azı 10 il qısaldır.

London Imperial kollecinin alimlərin apardığı araşdırmalara əsasən, bədəndəki artıq piy, xərçəngin inkişafı və ya xərçəng riskini 2 dəfə artırır. Alimlər piylənmənin 11 növ xərçəng yaratdığını deyir.

Əksər həkimlərin fikrincə, piylənməni yalnız həddindən artıq yemək problemi kimi düşünmək əvəzinə, onu xəstəlik kimi qəbul etmək, səbəblərinə və müalicəsinə diqqət yetirmək daha doğru olardı.

Hazırda siqaretdən sonra qarşısı alına bilən ölümlərin ikinci əsas səbəbi olan piylənmə, ürək-damar xəstəlikləri, hipertoniya, diabet, müəyyən xərçəng növləri, tənəffüs sistemi xəstəlikləri və əzələ-skelet sistemi xəstəlikləri kimi çoxsaylı sağlamlıq problemlərinin təməlini qoyur və həm həyat keyfiyyətinə, həm də ömrünə mənfi təsir göstərir. Bu həyəcan verici mənzərə piylənməyə qarşı hərtərəfli mübarizəyə təcili və hərtərəfli ehtiyac olduğunu vurğulayır.

### Təhlükədən kifayət qədər xəbərdarıqmı?

- Ölüm: Piylənmiş insanlarda ömür uzunluğu 6-7 il qısadır.
- Tip 2 Diabet: Boy-Kütlə İndeksi (BKİ) >35 kq/m2 olan qadınlarda BKİ <24 olanlarla müqayisədə diabet inkişaf riski 100 dəfə artır.
- Hipertoniya: BKİ ilə qan təzyiqi arasında xətti əlaqə mövcuddur. Çəki itkisi hipertoniyalı insanlarda qan təzyiqini azalda bilər.
- Dislipidemiya / Hiperlipidemiya
- Koronar Arteriya Xəstəliyi: BKİ-də 1 vahid artım ürək-damar xəstəlikləri riskinin 9% artmasına səbəb olur.
- Ürək Çatışmazlığı: Piylənmiş insanlarda ürək çatışmazlığı riski ikiqat artır.
- Nevroloji Xəstəliklər: İnsult, Alzheimer və demans riskini artırır.
- Xərçəng: Öd kisəsi, mədə, mədəaltı vəzi, qida borusu, tiroid, böyrək, uşaqlıq, yoğun bağırsaq, prostat və döş xərçənginin inkişafı ilə əlaqəlidir. Piylənmə xərçəngin 2-ci ən çox yayılmış qarşısı alına bilən səbəbidir.
- Tənəffüs Xəstəlikləri: Piylənmə obstruktiv yuxu apne sindromunun (OSAS) inkişafı üçün ən əhəmiyyətli risk faktorudur. Həmçinin astma riskini artırır.
- Mədə-bağırsaq Xəstəlikləri: Reflüks, yağlı qaraciyər, pankreatit və qida borusu xərçəngi riskini artırır. Həmçinin öd daşı inkişaf riskini 7 dəfə artırır.
- Sidik-cinsiyyət Sistemi Xəstəlikləri: Xroniki böyrək xəstəliyi riskini artırır. Qadınlarda daşlara və sidik saxlamamağa səbəb olur. Həmçinin məhsuldarlığın azalmasına (qadınlarda yumurtalıq kistaları və kişilərdə erektil disfunksiya) səbəb olur.

### Azərbaycanda piylənmə problemi

Bu problem Azərbaycandan da yan keçməyib- ölkəmizdə hər 2 nəfərdən birinin (təxminən 50 faiz) çəkisi normadan artıqdır, hər 3 nəfərdən 1-i (təxminən 33 faiz) isə piylənmədən əziyyət çəkir. Bu, dünya üzrə ən yüksək göstəricilərdən biridir.

Əsas səbəblər, oturaq işlərin artması, süni kimyəvi tərkibli, hormonal və GMO qidaların istehlakının kəskin artması, stress və sairdir. Ölkəmizdə "piylənmə" diaqnozu qoyulan uşaqların sayı da sürətlə artır. Bu da müasir uşaqlara təbii qdalar yox, daha çox fast-fod qidalar verilməsi və onların fiziki fəaliyyətinin azalması ilə bağlıdır.

Ümumdünya Piylənmə ilə Mübarizə Federasiyasının məruzəsinə görə, 2025-ci ildə insanların artıq çəki və piylənmə problemləri ilə bağlı Azərbaycan iqtisadiyyatının zərəri 1,74 milyard dollar təşkil edib. 2035-ci ildə isə bu rəqəm 3 milyardı və ya ÜDM-in 4,4%-ni keçə bilər. Bu problemin həlli üçün vəziyyəti yaradan səbəblər aradan qaldırılmalı, xüsusən də təbii qidalanma və fiziki aktivliyə diqqət yetirilməlidir.

***Elçin Bayramlı***

SON SƏHİFƏ

# SƏS

20 yanvar
2026-cı il

# Mərkəzi Gömrük Hospitalında yenidoğulmuşlara 24/7 rejimində yüksək standartlı neonatoloji xidmətlər göstərilir



Mərkəzi Gömrük Hospitalının Neonatologiya şöbəsində yenidoğulmuşlara beynəlxalq standart və protokollara uyğun olaraq 24/7 rejimində neonatoloji tibbi xidmətlər təqdim olunur. Şöbənin yüksəkixtisaslı pediatr-neonatoloqları Dr. Telman Aytayev, Dr. Təranə Göyüşova, Dr. Aygün Sadıxova, Dr. Minazər Abdullayeva, Dr. Fərəh Vahabova və Dr. Nazilə Hüseynova tərəfindən həm sağlam yenidoğulmuşlara, həm də vaxtından əvvəl doğulmuş və ya doğuşdan dərhal sonra müxtəlif sağlamlıq problemləri ilə üzləşən körpələrə həyatlarının ilk saatlarından etibarən xüsusi diqqət və peşəkar tibbi nəzarət göstərilir. Körpələrin sağlamlıq vəziyyəti yaxından izlənilir, fərdi müalicə və qulluq planları hazırlanaraq onların təhlükəsiz və sağlam inkişafı təmin olunur.

Neonatoloqlar yenidoğulmuşların həyatının ilk günlərində, həftələrində və aylarında onların böyümə və inkişaf dinamikasını, ümumi sağlamlıq göstəricilərini mütəmadi olaraq nəzarətdə saxlayırlar. Xüsusilə həyatın ilk günü və ilk həftəsi körpənin gələcək sağlamlığı üçün həlledici mərhələ hesab olunduğundan, bu dövrdə aparılan müşahidə





və tibbi müdaxilələr xüsusi əhəmiyyət daşıyır. Həkimlər körpələrin fizioloji və metabolik xüsusiyyətlərini nəzərə alaraq, onların tam və sağlam inkişafını dəstəkləyən effektiv tibbi strategiyalar tətbiq edirlər.

Neonatologiya şöbəsi müasir tələblərə cavab verən doğum otağı, yenidoğulmuşların fizioloji baxım, reanimasiya və intensiv terapiya otaqları ilə təchiz olunub. Sağlam yenidoğulmuşlar üçün nəzərdə tutulan müayinə paketinə pediatr, kardioloq, nevropatoloq və oftalmoloq müayinələri, ürəyin exokardioqrafiyası, baş beynin ultrasəs müayinəsi, qanın ümumi analizi, qan qrupu və rezus faktorunun, eləcə də total bilirubinin müəyyən edilməsi daxildir.

Neonatologiya şöbəsinin yüksəkixtisaslı tibb personalı yenidoğulmuşlara 24/7 rejimində ilkin neonatoloji yardımdan başlayaraq reanimasiya və intensiv terapiya xidmətlərinə, eləcə də kompleks tibbi yanaşma çərçivəsində geniş spektrli müalicə və müşahidə xidmətləri göstərir. Xatırladaq ki, 2025-ci ildə Mərkəzi Gömrük Hospitalında dünyaya gələn üçəm körpələrə yüksəkixtisaslı tibbi heyət tərəfindən beynəlxalq klinik protokollara uyğun olaraq doğulduqları ilk andan etibarən fasiləsiz neonatoloji nəzarət və kompleks tibbi yardım göstərilib.

***Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi Dilarə Zamanova***


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Əsrin oğurluğu: 8 min brilyant yoxa çıxdı!

***Fransa televiziya kanallarında Parisdə yerləşən Luvr muzeyində baş vermiş səs-küylü oğurluğun təhlükəsizlik kameralarından əldə edilən görüntüləri yayımlanıb. Musavat.com xəbər verir ki, oğurluq 2025-ci il oktyabrın 19-da baş verib.***



Məlumata görə, naməlum şəxslər muzeyin ən qorunan bölmələrindən birinə daxil olaraq 8 mindən çox brilyant və 200 ədəd nadir mirvarini ələ keçiriblər. Fransa polisi hadisə ilə bağlı dörd şübhəli şəxsi saxlayıb, lakin oğurlanmış qiymətli daşlar hələ də tapılmayıb. Hüquq-mühafizə orqanları cinayətin peşəkar şəkildə planlaşdırıldığını, təhlükəsizlik sistemlərinin əvvəlcədən öyrənildiyini bildirir. Televiziyada yayımlanan kadrlarda oğruların gecə saatlarında sakit və koordinasiyalı şəkildə hərəkət etdiyi, vitrinlərin qısa müddətdə açıldığı görünür. Mütəxəssislər bunu son illərin ən böyük muzey oğurluqlarından biri kimi qiymətləndirirlər.

## ELAN

Dövlət Sərhəd Xidməti tərəfindən İsrəfilov Toğrul Səməd oğlunun adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

## BAŞSAĞLIĞI

Bank BTB-nin əməkdaşları **Tural Didəkənani Vaqif oğlunun** vaxtsız vəfatından kədərləndiyini bildirir və əzizlərinə dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin.***


***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur
**Tiraj: 2000**